***Telman İbrahimov***
*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Memarlıq və İncəsənət İnstitutu*

# LAHIC MİSGƏRLİYİ

(tarixi ənənələr, çiçəklənmə dövrü və süqutu)

Azərbaycan ərazisində mis yataqlarının istismarı və ilk mis məmulatının hazırlanması eneolit (e.ə. VI minillik) dövrünə təsadüf edir. Kəlbəcər, Gədəbəy, Qarabağ, Naxçıvan, İsmayıllı və digər bölgələrdən əldə olunan misdən təsərrüfat və məişətdə istifadə edilən əmək alətləri, bəzəklər və qab-qacaq istehsalı geniş yayılır. Həmin mis qab-qacaq əvvəllər "soyuq döymə", sonralar isə "isti döymə", qəlibləmə, lehimləmə və quraşdırma yolu ilə hazırlanaraq, qabartma, qaxma, oyma üsulları ilə bəzədilir.

Azərbaycan xalq sənətkarlığının məişətlə bağlı olan sahələrindən biri misgərlik sənəti olmuşdur. Bu sənətin kökləri ibtidai dövrdən başlayaraq, qədim dövrdə inkişaf etmiş və orta əsrlərdə artıq zəngin ənənələrlə davam etmişdir.

Arxeoloji tapıntılara əsasən, misgərliyin Azərbaycan ərazisində daha inkişaf etmiş mərhələsi tunc dövrünə təsadüf edir (e.ə. III – II minilliklər). İlk tuncdan hazırlanmış(əsasən, mislə qalayın qarışığı) dini, mərasim və məişət məmulatı əsasən "soyuq döymə" üsulu ilə hazırlanmışdır.

Orta tunc dövründə yeraltı kürələrin və daş kömürün metaləritmədə istifadəsi daha mütərəqqi texnologiyanın mənimsənilməsinə gətirib çıxarmışdır. Metal əritmə, tökmə, qəlibkarlıq texnologiyaların əldə olunması texnoloji baxımdan daha keyfiyyətli və bədii baxımdan – daha estetik mis əşyaların dini və məişət ehtiyaclar üçün hazırlanması mümkün olmuşdur.

E.ə. II minilliyə aid Şəmkir yaxınlığından tapılmış tunc təbərzin baltasının daş qəlibi(Azərbaycan tarixi Muzeyi) bu sənətin geniş yayılmasından xəbər verir. Tuncdan hazırlanmış müxtəlif silah, bəzək və məişət əşyaları bu dövrdə misgərliyin əksər texnoloji üsulları mənimsəməsini sübut edir. Mingəçevirdən

tapılmış tunc Təbərzin balta, maral, dağ keçisi, ördək fiqurlu tunc asmalar bu sənətin qəlibkarlıq sahəsini əks edirlər.

Misgərliyin qəlibkarlıq, döymə, lehimləmə, bəndetmə texnikaları vasitəsilə daha incə və zərif bəzək əşyaları hazırlanmışdır. Qarabağdan tapılmış əsasnın tuncdan öküz başlı toppuzu, müxtəlif gicgah medalyonları və çoxsaylı tunc kəmərlərin istehsalı tunc dövrü misgərliyinin yüksək bədii-texnoloji ənənələr əldə etməsini nümayiş edir. Dəmir dövründə bu ənənələr bir qədər də zənginləşərək, daha xırda ölçülü mis və tuncdan hazırlanmış dini, məişət və bəzək əşyalarının yaranması ilə nəticələnir.

Misgərlik sənətinin inkişafının növbəti mərhələsi qədim dövrə təsadüf edir. Qədim Manna, Midiya, Atropatena və Albaniya dövlətləri dövrünə təsadüf edən arxeoloji tapıntılar arasında misgərlik sənəti nümunəsi çoxluq təşkil edir.

Bu dövrlərdə tunc və mislə bərabər qiymətli metalların da emalı ənənələri yaranır. Qızıl, gümüşdən hazırlanmış əşyalar sinifli cəmiyyətin ali və yüksək təbəqəsi üçün nəzərdə tutulmuşlar. Orta təbəqə əsasən mis və tuncdan hazırlanmış dini, məişət və bəzək əşayalarını istifadə etmişlər. Aşağı təbəqə isə - bişirilmiş dulus gili materialından hazırlanmış qab-qacaq istifadə etmişdir.

Azərbaycan ərazisinin müxtəlif bölgələrində arxeoloji qazıntılar nəticəsində tapılmış bəzək və qab nümunələri qədim dövrün maddi mədəniyyətini əks etdirir. Lakin mis qab-qacaq istehsalının genişlənməsi və kütləviləşməsi bilavasitə orta əsrlərə təsadüf edir. Bu vaxt ticarət və sənətkarlığın yayıldığı Azərbaycanın bir sıra iri şəhərləri misgərlik sənəti mərkəzlərinə çevrilir. Bunların arasında Gəncə, Naxçıvan, Şamaxı, Bakı, Bərdə, Beyləqan, Salyan, Şuşa, Şəki, Daşkəsən, Balakən, Lahıc (İsmayıllı) və s. adları çəkmək olar. Məlumatlara əsasən, təkcə Lahıcda hələ XIX əsrin ortalarında 180-190 arasında mis karxana fəaliyyət göstərib.

Qida məhsulları üçün nəzərdə tutulan mis qablar tam hazır olduqdan sonra qalaylanırdı, bu da Azərbaycanda xüsusi qalayçı emalatxanalarının geniş yayılmasına səbəb olmuşdur. Qalay təbəqəsi mis qabın oksidləşməsinin qarşısını almaqla bərabər, içindəki qidanın tam vermәsinin də qarşısını alırdı.

Cəmiyyətin bütün təbəqələrinin tələbatını ödəyən misgərlik sənəti xalq sənətkarlığının mühüm sahələrindən birinə çevrilir. Əhalinin belə qablara olan tələbatı misgərlik sənətinin inkişafına güclü təkan verir. Bunun nəticəsində XVIII əsrdən etibarən misgərlik sənəti özünün "İntibah" dövrünü yaşamağa başlayır.

Bu dövrdə Azərbaycan əhalisinin məişətində mis məmulatın geniş yayılması ölkənin və xalqın sosial-iqtisadi həyat tərzi ilə şərtlənirdi. XIX əsrin sonunda Cənubi Qafqazın kustar sənətlərini tədqiq edən A.S. Piralov belə bir məlumat verir: "Mis qablardan istifadə adəti təsadüfi olmayan xüsusiyyətdir, yalnız son dərəcə ehtiyac mis qabı gil qabla əvəz etməyə məcbur edir. Uzun illərin təcrübəsi və empirik biliklərə əsaslanaraq demək olar ki, mis qabların digər növ qablardan üstünlüyü o dövr üçün danılmaz idi. Gil və şüşə qablara nisbətən, mis qablar sınmaya daha davamlı olmuşlar».

Əsasən yarımköçəri heyvandarlıqla məşğul olan (yaylaq-qışlaq) əhali üçün sınmayan, uzunömürlü mis qablar daha əlverişli idilər Digər tərəfdən, qiymətli və yarımqıymətli metallardan hazırlanmış qablara nisbətən mis qablar daha ucuz başa gəlirdi. Bununla belə, tarixi mənbələrin məlumatlarına əsasən, mis qab-qacaq əhalinin bütün sosial təbəqələrinin  məişətində geniş yayılmışdır.

Təsərrüfat və məişətin müxtəlif sahələrində yaranan gündəlik tələbatları ödəyən misgərlik sənəti 40-dan artıq çeşiddə müxtəlif mis qab-qacağın, mərasim və məişət əşyasının yaranmasına səbəb olmuşdur. Bütün bu misgərlik əşyaları funksional təyinatına funksional təyinatına görə 4 qrupda təsnifatlandırılır:

1. Maye qabları;
2. Mətbəx qabları və avadanlığı;
3. Süfrə qabları və avadanlığı;
4. Ev-məişət əşyaları.

Yaşayış tərzindən və tələbatdan asılı olaraq, bir çox hallarda bu qablar funksional imkanları daxilində bir neçə məqsədlə istifadə olunmuşlar.

Xalq sənətkarları tərəfindən misdən hazırlanmış mürəkkəb və incə naxışlarla bəzədilmiş dolça, satıl, sərnic, məcməyi, sərpuş, güyüm, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və sair məmulatlar nəinki Azərbaycanın, eləcə də bir çox dünya

muzeylərinin və şəxsi kolleksiyaların qiymətli eksponatlarına çevrilmişlər. Bu zəngin irsin demək olar ki, əksər nümunələri Azərbaycanın iri mərkəzi və əyalət diyarşünaslıq muzeylərində qorunub saxlanır. Xalqının ənənəvi misgərlik sənətini əks etdirən bu nadir eksponatlar muzey fondu və ekspozisiyasında yer alaraq, Azərbaycan xalqının məişət mədəniyyətini və bədii təfəkkür tərzini əks etdirir.

**Maye qabları**

Suyun bulaqdan, çaydan, hovuzdan gətirilməsi üçün istifadə olunan mis məmulatlar sırasında *səhəng, satıl, küzə* adlanan qablar mövcuddur. Birdəstəkli qablar qrupuna aid olaraq, bunlar insan gücünə müvafiq olan su tutumuna malikdirlər. Əsasən çiyində və əl ilə daşınan bu su qabları uzunboğazlı, “bikonik” formaya malik olmuşlar. Səhəng və küzə suyun yalnız daşınması üçün nəzərdə tutulduğundan onların üzərində naxışlar minimum həddində olmuşdur. Satıl isə əksinə, məişətdə daha çox su, süd, şərbət saxlamaq üçün istifadə olduğundan daha bəzəkli olması ilə seçilir. Mis qabların naxışlarının zənginliyi, kamilliyi və sıxlığı qab yiyəsinin mənsub olduğu sosial təbəqədən, sifarişçinin zövqündən və misgərin sənətkarlıq səviyyəsindən asılı olurdu.

Azərbaycan xalça Muzeyi kolleksiyasında bu qəbildən olan qablardan *mis satıl* özünün zəngin ənənəvi dekor prinsipi kamil forma və nisbətləri ilə diqqəti cəlb edir. XIX əsrə aid və Qarabağda hazırlanmış bu satıl nümunəsi misgərlik sahəsində olan yerli həm dövr bədii-texniki ənənələri əks etdirir.

Maye üçün istifadə olunan mis qablar arasında *dolça, güyüm, aftafa, dolça, piyalə, parç, badya, lüləyin, hamam tası, tayqulp, çaydan, qəhvədan, abgərdən* və d. adlarını çəkmək olar. Muzey kolleksiyasında zəngin nəbati naxışlar və kalliqrafik yazılarla bəzədilmiş bu qablar çoxluq təşkil edir.

Yarımköçəri təsərrüfat-və heyvandarlığın əksəriyyət təşkil etdiyi orta əsrlər Azərbaycanında süddən hazırlanan məhsulların geniş çeşidi olmuşdur. Xalq tərəfindən belə məhsullara ümumi ad kimi -*ağartı* demişlər. Ağartı məhsullarının hazırlanması, saxlanması və istifadəsi üçün müvafiq mis qab-qacaq hazırlanırdı. Belə qablardan *sərnic*(süd qabı), *dəbbə*(yağ, qaymaq, bal saxlamaq üçün qab), *sini, badya* (qaymaq hazırlanması üçün yastı qablar), *yağlıkeş(talışlarda ağartı*

*qabı)*kimi yüksək bədii dəyərə malik olan mis qablar muzeyin kolleksiyasını bəzəyirlər. Bu qabların üzərində nəbati naxışlar və kalliqrafik mətnlər dekorun vəhdətini təmin etmişlər. Klassik şair Hafizin şerlərindən bir beytin gözəl xətt üslubu ilə yazılmasına 1870-ci ildə hazırlanmış *məcməyinin* bədii tərtibatında rast gəlirik.

XIX əsrdə Lahıcda hazırlanmış s*ərnic* üzərindəki dekorativ kitabədə "*12 İmama, Allahın Mustafa və Məhəmməd əl-Murtəzaya və Bətul Fatimə əl-Səbteynə və Hüseynə və Həsənə və salam Zeynəl Abdinə və Mehdi əl-qaimə salavatı olsun*"(epiqrafikaçı: Məşədixanım Neymətova) məzmunlu xeyir-dua mətninin kalliqrafik yazışını müşahidə edirik. Buna oxşar xeyir-dua xarakterli mətnə XIX əsrdə Lahıcda hazırlanmış digər bir *badya* üzərində də rast gəlmək mümkündür.

**Süfrə qabları və avadanlığı**

Ənənəvi misgərlik məmulatları arasında süfrə qabları ayrıca qrup təşkil edir. Bu qablar istifadəsinə görə fərdi və kollektiv səciyyə daşıyırdı. *Cam, kasa, nimçə, fincan, şərbəti, piyalə, masqura* və digərləri fərdi süfrə qablarına aiddirlər. *Məcməyi, sini, sərpuş, ləngəri, dəhmərdan* və sair, kollektiv istifadə üçün nəzərdə tutulmuş qablardır.

*Camlar* böyük, orta və kiçik ölçülərdə olaraq, daxili səthi - saya, xarici isə - naxışlı olurdu. *Camın* orta ölçülü növü – *kasa*, kiçik ölçülü –*piyalə* və ya *masqura* adlanırdı. Muzey kolleksiyasında camların hər üç növünə aid qiymətli eksponatlar mövcuddur.

XIX əsrin sonu – XX əsrin əvvəlinə aid Lahıcda hazırlanmış kasa, cam və piyalələrin nəfis bəzədilmiş nümunələri ekspozisiyada nümayiş olunurlar. Bunların arasında üzəri kalliqrafik kitabələrlə bəzədilmiş camın mətnində 14 şəxs adına Allahdan "Salavat" dilənilir. Camın üzərində onun sahibinin adı və istehsal tarixi yazılmışdırصاحبه مهدي ١٢٢١ - *Sahibi Mehdi* 1806/07(epiqrafikaçı: Məşədixanım Neymətova).

Lahıc misgərlərinin XIX əsrdə hazırladığı digər bir badyada nəbati dekorun arasında kalliqrafik medalyonlarda "*Allahın salavatı olsun Mustafaya, Məhəmməd əl-Murtəzaya, Əl-Bətül Fatimə, əs-Səbteynə, Həsənə və Hüseynə...Sahib əz-zaman*

*Mehdiyə*"(epiqrafikaçı: Məşədixanım Neymətova) kəlamı yazılmışdır. Nəbati naxışlar xonça şəklində kitabəni əhatə edirlər.

Süfrə qabları arasında çoxluq təşkil edən mis qablardan biri *nimçə adlanır.* Nimçə əsasən şəhər ailələri arasında dəbdə olmuşdur. O, xörək qabı olaraq isti və soyuq yeməklər üçün istifadə olunurdu. İsti xörəklər üçün istifadə olunduqda, qidanın isti qalması üçün nimçənin üstü *sərpuşla* örtülərdi. Belə sərpuşların nəfis bəzədilmiş bir neçə nümunəsi muzey kolleksiyasında saxlanılır.

Üzəri oyma üsulu ilə bəzədilmiş XIX əsr sərpuşlarından birinin üzərində "buta" və nəbati naxışlar var. Naxışları əhatə edən dekorativ haşiyədə kalliqrafik mətn diqqəti cəlb edir. Mətn klassik şair olan Hafizin 9 beytlik şerini əks etdirir.

XX əsrin əvvəlinə aid başqa bir sərpuşun dekoru həmin ənənəni davam etdirərək, digər klassik şair - Sədi Şirazinin şerindən 2 beyti kitabə şəklində əks etdirir.

Süfrədə istifadə olunan qablar arasında *"gülabdan"* adlanan qaba da rast gəlinir. Əvvəllər əsasən süfrədə, yemək yeyəndən sonra əllərə tökülən ətirli gülab (qızılgül suyu) sonralar daha çox yas məclislərində istifadə olunmağa başlayır. Böyük ölçülü ətir qabına oxşayan gülabdan dəfn mərasiminin sonunda "paklanma" üçün istifadə olunur. İncə, nazik və hündür boğazlı gülabdan bu gün də həmin məqsədlə dəfn mərasimlərində istifadə olunmaqdadır.

Muzey kolleksiyasının zəngin və kamil nəbati dekora malik gülabdanlardan biri XIX əsrin sonuna aiddir. Hündürlüyü 30 sm, diametri 10 sm olan bu gülabdanın nəbati naxışları oyma və cızma üsulu ilə icra olmuşdur.

**Mətbəx qabları və avadanlığı**

Ənənəvi mis qab-qacaq içində mətbəxdə istifadə olunan qabların da sayı az deyildi. Əsasən çörək və xörək bişirmək, müxtəlif ağartı məhsulları hazırlamaq, mürəbbələr və quru meyvələr hazırlamaq, ərzaq ehtiyatı saxlamaq üçün istifadə olunan bu qablar müxtəlif formaya və ölçüyə malik olmuşlar. Bununla yanaşı, müxtəlif təyinatlı mətbəx alətləri və avadanlığı da misgər ustalar tərəfindən böyük məharətlə hazırlanırdı.

Belə qablar içində ailə üçün xörək bişirilən *qazanlar* böyük bir qrupu təşkil edir. Qazanlar təyinatından asılı olaraq, müxtəlif ölçüdə və formada hazırlanırdı. Böyük ziyafətlər üçün hazırlanan qazanlar *tiyan* adlanırdı. Qablama-qazan növü orta ölçülüdür, onun hündür qapağı qazanın ağzına kip keçirilərək, içindəki xörəyi uzun müddət isti saxlamağa imkan verirdi. Qablama-qazanın dəstəkləri olmurdu.

İri ölçülü tiyan və qazanların üzərində dekor az olurdu. Kiçik ölçülü və şəxsi təsərrüfatda  işlənilən qazanlar üzərində isə bəzən dekorsuz sahə qalmırdı. Bu qazanların üzərində çox vaxt şer parçaları, xeyir-dua kəlamları və qazan sahibinin adı kalliqrafik kitabələrdə yerləşdirilirdi.

Yaylaq-qışlaq mövsümlərində, köç zamanı və yaxud həcc ziyarətində səfərdə olan vaxt qablama qazanın kiçik ölçülü nüsxəsi istifadə olunurdu. Ev şəraitində belə qazanlar əlavə souslar, turşu-qovurmalar və s. hazırlanması üçün istifadə olunurdu. Qazanların forması təyinatından, ocağın ölçüsündən, kürənin quruluşundan asılı olaraq, silindrik və yaxud "bikonik" (ikitərəfli konus-vari) formada olmuşdur.

Orta ölçülü "qablama-qazanlar" tipinin nəfis bəzədilmiş nümunələrindən biri muzey ekspozisiyasında nümayiş olunur. XX əsrin əvvəllərinə aid olan bu qazanın xarici səthi yüksək ustalıqla oyma üsulu ilə işlənmiş nəbati naxışlarla zəngindir. Nəbati motivlər arasında yerləşdirilmiş medalyonlarda ov səhnəsi, insan, heyvan və quş təsvirləri böyük ustalıqla təsvir olmuşdur. Qazanın diametri 27 sm, hündürlüyü isə 12 sm bərabərdir.

Mətbəx qabları içərisində mis *tava* müxtəlif ölçülü olmuşdur. Tavanın üzərində bəzək yox səviyyəsində olurdu. Tavanın xüsusi qapağı olmadığından onun ağzına *sini* və yaxud *dövrə* adlanan yastı qablar qoyulurdu.

*Teşt* adlanan qab böyük ölçüdə olaraq, müasir dövrün vannasını əvəz edirdi. Xəmirin yoğurulması, çimmək, paltar yumaq, mürəbbə, doşab bişirmək üçün istifadə olunan teştlər dəstəksiz və qapaqsız olurdular.

*Məcməyi* adlanan iri ölçülü yastı qab toy şənliklərində, nişanda və yas məclislərində istifadə olunurdu. Toy və yas məclislərində məcməyidə plov paylanırdı. Kiçik ölçülü məcməyilərdə düyü, buğda, lobya və s. arıtlanırdı.

"Məcməyi" qabın nəfis bir nümunəsi muzey ekspozisiyasını bəzəyir. Üzərindəki kalliqrafik yazıya əsasən məcməyi 1869/70-ci ildə hazırlanmış və onun diametri 40x40 sm təşkil edir. Məcməyinin dayaz divarları dalğavari formada olmaqla, mərkəzi hissəsində dekorativ kitabənin daxilində Hafizin şerindən bir beyt yazılmışdır:

*Saqi, badə nuruna qaldır bizim camımızı.*

*Çalğıçı, çal ki, dünyanın işi bizim arzumuzla oldu*

(epiqrafikaçı: Məşədixanım Neymətova)

Məcməyidən ölçülərinə görə daha kiçik olan yastı qab *sini* adlanırdı. Sini həm mətbəxdə, həm də süfrədə istifadə olunurdu.

Sininin dərin növü*" ləngəri",* xırda və dayaz növü *"sahan"* adlanırdı. Diametri 25 sm olan sinilərdən biri muzey ekspozisiyasında nümayiş olunur. Bu eksponatın üzərində onun sahibinin adı mövcuddur, lakin yazı silindiyindən aydın oxunmur.

Mətbəx qabları sırasında "aşsüzən" – plovun hazırlanması prosesində istifadə olunurdu. Plovun xalq arasında məlum olan adlarından biri "aş"-dır. Muzey kolleksiyasında müxtəlif ölçülü aşsüzənlər mövcuddur. Onlardan biri XIX əsrdə hazırlanmış, diametri 26 sm, hündürlüyü isə 19 sm təşkil edir. Xarici səthi nəbati dekorla bəzədilmiş və medalyon şəklində olan kitabələrlə bəzədilmişdir. Kitabələrin daxilində kalliqrafik üslubda Hafizin şerindən bir neçə beyt yazılmışdır.

Mətbəxdə istifadə olunan qab-qacaq, avadanlıq və alətlər sırasında müxtəlif ölçülü *çömçələr, abgərdən, kəfgir, qaşıqlar* və digərləri misgər ustalar tərəfindən fərdi sifarişə əsasən hazırlanırdı. Belə mis avadanlıq kübar təbəqələr üçün nəfis şəkildə bəzədilir, orta və kasıb təbəqə üçün bəzəksiz, saya olurdu.

**Ev-məişət əşyaları**

Misgərlik kolleksiyasının böyük hissəsini ev-məişət əşyaları təşkil edir. Gündəlik və müxtəlif növ mərasim tələbatlarını ödəyən belə nümunələr interyerin tərkib hissəsi olaraq, o dövr insanlarının əşyalara olan praktiki münasibətini və

dizayn təfəkkürünü əks etdirir. Eyni zamanda, bu əşyalar ənənəvi cəmiyyətdə yaşayan insanların estetik təsəvvürlərini, bədii normalarını və dəbi əks etdirmişlər.

Keçmiş məişətdə işlənən bir sıra əşyalar (*şamdan, piydan, çıraq, kürsü manqalı, kabab manqalı, gülabdan, rüşul qabı, çiriş qabı, sulu qəlyan, qəlyan, qəlyan masası, süzək, tərəzi gözü, zınqırov* və s.) misdən döyülür və ya qəlibkarlıq üsulu ilə hazırlanırdı. Belə əşyalardan bir çoxu muzey kolleksiyasında saxlanılaraq, ekspozisiyada nümayiş olunur.

Bu qəbildən olan əşyalardan XIX əsrə aid *gülabdanı, manqalı,* XX əsrin əvvəlində Lahıcda hazırlanmış *ləyəni* göstərmək olar. Evlərin işıqlanmasında istifadə olunan mis *çıraqlar* funksionallığı və eyni zamanda, dekorativliyi ilə seçilir. *Çıraqlar* daha çox orta və kasıb təbəqə tərəfindən istifadə olunduğu halda, zadəganlar daha çox *lampələrə* üstünlük vermişlər. Çıraqdan fərqli olaraq, lampələr evə daha az his buraxmışlar.

Məişət əşyaları arasında öz qeyri-adiliyi ilə seçilən "*hamam sandığı*"- hamamda çimən vaxtı şəxsi əşyaları, bəzək və zinət nümunələrini etibarlı yerdə saxlamaq imkanı verirdi. Bir növ "seyf" funksiyasını daşıyan hamam sandığının qapağı asma qıfıl vasitəsilə qıfıllanırdı. XIX əsrdə hazırlanmış hamam sandığının nəfis bəzədilmiş nümunələrindən biri muzey kolleksiyasında saxlanılır.

XX əsrin əvvəlindən başlayaraq Rusiyadan ucuz qiymətə gətirilən qab-qacaq və müxtəlif məişət avadanlığı qədim misgərlik sənətinin inkişafına mənfi təsir göstərməyə başlayır. Bu dövrdən başlayaraq ənənəvi misgərlik sənəti tənəzzül keçirməyə başlayır. Qədim ənənələrə bələd olan misgərlərin bu sənətdən uzaqlaşması nəticəsində mis qabların və əşyaların kəmiyyəti və keyfiyyəti getdikcə aşağı düşür. Asan və ucuz başa gələn şüşə, saxsı, çuqun, dəmir qablar getdikcə ənənəvi mis məmulatını məişətdən "sıxışdıraraq" çıxarırlar.

Bu gün qədim xalq sənətkarlığını və məişət mədəniyyətini əks etdirən misgərlik nümunələrinə yalnız muzey ekspozisiyalarında və şəxsi kolleksiyalarda rast gəlmək mümkündür. Bu baxımdan Azərbaycan Tarixi Muzeyi, Azərbaucan İncəsənət Muzeyi və Azərbaycan Xalça Muzeyinin fond və ekspozisiyalarında saxlanılan və nümayiş olan ənənəvi misgərlik sənəti nümunələri öz tarixi

əhəmiyyəti, mədəni dəyəri və bədii xüsusiyyətlərinə görə əhəmiyyətli mili irs kimi saxlanırlar.

Azərbaycan xalça Muzeyinin 50 illiyinə həsr olunmuş Toplu üçün məqalə
03.04.2017